***Şahin Fazil***

## *Bığ*

Söz oxum tuşlanıb qaçan kəslərə:
Bığ tumarlamaqdan kar aşmır daha.
Vətən əldən gedir göz görə-görə,
Sizə bığ saxlamaq yaraşmır daha.

Bağım tarimardır, dağım tarimar,
Bığa yox, döyüşə verək diqqəti.
Xocalı dərdimiz nə qədər ki, var,
Yoxdur bığ saxlamaq səlahiyyəti.

Kişilər bığlı da, bığsız da gözəl,
Qoy bütün igidlər cəngə tələssin.
Bığ sığallamağa uzanmasın əl,
Barmaqlar tətiklər üstündə gəzsin.

Döyürəm özümü imkansız görüb,
İmkanım olsaydı olmazdı dərdim,
Əlimə iti bir ülgüc götürüb
Hər qaçan bığlını bığsız edərdim.

Sözümüz sözbilən insan yanında
Canımız sağ olsun, bığsız da keçər.
Kəlməmiz vəfalı canan yolunda
Təki dodaq olsun, bığsız da keçər.

Daha taqətimiz son həddə çatıb,
Yağını biryolluq kiritməliyik.
Bığın hər tükünü gülləyə qatıb
Düşmənin canına yeritməliyik.

Allah qoysa bitər cəng hazırlığı,
Tale bağımızda çiçək görünər.
Elə bığ saxlarıq, Koroğlu bığı
Bığımız yanında gödək görünər.

Hələki öndədir yağının atı,
Eybi yox bizim də bəxtimiz gülər.
Onda əvəz edər büsat büsatı,
Fərəhdən göz yaşı bığa süzülər.

Sevinc həzzə dönər, həzz sevinc olar,
Asudə olarıq vətənə baxıb.

Bitər müharibə, ara dinc olar,
Görrük ki, bığ yeri bığsız darıxıb.
Görrürk ki, bığımız çıxıb, o zaman
Əlini hər bığa bir afət çəkər.
Uzun bığımıza baxıb o zaman
Kuban kazakları xəcalət çəkər.

***Fazil Ş. Bığ : şeir // Azərbaycan harayı. – Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. – S.203-204.***